**GÜLNARA HACIYEVA**
**ADPU**
**g.h.hajiyeva@gmail.com**

# FRANSADA TƏNQIDI REALIZMIN MEYDANA GƏLDIYI ILKIN ŞƏRTLƏR

**Açar sözləır:** Realizim hərəkatı, XIX əsrion birinci ytarsı, XIX əsrin ortaları, burja inqilabı, tarixi şərait, monarxiya, respublika inperya, böhran, konstitusiya, hüquq və azalıqlar, Stendal, Balzak, Şanflori, Düranti, Qustav Kurbe, elmi kəşflər, tipik xarakter, sosial-psixoloji analiz
**Key words:** The realism movement, the first half of the XIX century, the middle of the XIX century, bourgeois revolution, historical conditions, the monarchy, the republic, the empire, the crisis, the constitution, the rights and freedoms, Stendahl, Balzac, Shamfleury, Duranty, artist Gustav Courbet, scientific discoveries, typical character, social-psychological analysis, society, reality.
**Ключевые слова:** Движение реализма,первая половина XIX века, середина XIX века, буржуазная революция, исторические условия, монархия, республика, империя, кризис, конституция, права и свободы, Стендаль, Бальзак, Шанфлёри, Дюранти, художник Густав Курбе, научные открытия,типичный характер, социально-психологический анализ,общество, реальность.

On doqquzuncu yüzillikdə Avropanın sosial və mənəvi həyatının bütün sahələrinə nüfuz edən Fransa burjua inqilabından sonra ədəbiyyat və incəsənət yeni bir mərhələyə qədəm qoydu. Avropa və Fransa ədəbiyyatında romantizm cərəyanının ardınca "realizm" dövrü başladı. Mütərəqqi ədəbiyyatın, o cümlədən tənqidi realizmin hərəkətverici qüvvəsi demokratik və humanist ideyalar, insani münasibətlərin əsasında qardaşlıq və bərabərlik prinsiplərinin dayanması barədə düşüncələr idi. Hər bir ədəbi məktəbin meydana çıxaraq təşəkkül tapması üçün, yazıçıların dünyagörüşlərində və ideoloji baxışlarında yeni xüsusiyyətlərin əmələ gəlməsi üçün ilk növbədə buna ideoloji zəmin yaradan tarixi, ictimai, siyasi şəraitin yaranması vacib şərtdir. "Sənətin bütün nəhəng forma və məzmun dəyişikliklərinin arxasında insanların ictimai həyatlarındakı nəhəng dəyişikliklər dayanır" [1,280]. Realizm ədəbi məktəbinin yaranması, ədəbiyyat və incəsənətdə tənqidi realizm ideyalarının təşəkkül tapması da bir sıra obyektiv şərtlərin meydana çıxması ilə əlaqədar idi: Fransız cəmiyyətində realizm ideyalarının meydana çıxaraq formalaşması prosesi Fransada XVIII əsrin sonlarından başlayaraq növbəti əsrdə də davam

etməkdə olan mühüm sosial-siyasi hadisələr fonunda cərəyan etmişdi. Yaradıcı insanlarda yeni düşüncə tərzinin və dünyagörüşünün formalaşmasında həlledici rol oynayan həmin hadisələr hansılar idi?

Realizm hərəkatının vətəni sayılan Fransada XIX əsr böyük dəyişikliklər dövrü, siyasi cəhətdən qeyri-sabit bir dövr idi. 1799-cu il Fransa inqilabının yaratdığı şok dalğası növbəti əsrin sonuncu onilliklərinə qədər davam etməkdəydi. Bununla yanaşı həmin dövr burjua cəmiyyətinin və mədəniyyətinin müxtəlif sahələrində yüksəliş dövrü, maarifçilik ideyalarına, fundamental dəyərlərə dönüş dövrü idi. Sosial-siyasi inqilabların baş verdiyi XIX yüzillik əqlin və şüurun inkişafında yeni mərhələ açmağa nail olmuşdu. Ictimai və mədəni sahələrdə köhnə rejimdən ağır miras qalmasına baxmayaraq, elm və texnikanın tərəqqisi fransız cəmiyyətində dəyişikliklərə gətirib çıxarır, yeni bir sinfin -- proletariatın meydana çıxmasına zəmin yaradırdı. Fəhlə sinfi kəndlilərlə müqayisədə daha çevik, eyni zamanda az mühafizəkar idi. Ölkədəki zadəgan və ruhanilərin zəifləməsindən istifadə edən liberal və islahatçı burjuaziya sənayenin inkişafına stimul verməklə yanaşı başlıca ictimai sinif kimi öz mövqeyini də möhkəmləndirirdi. XIX yüzillik Fransada iki imperiya, üç monarxiya və iki respublikanın qurulması ilə yadda qalıb. Həmin əsrin ən başlıca hadisələri isə 1848 və 1871-ci illərdə baş vermiş inqilablardır. Qeyd etmək lazımdır ki, inqilab dalğası yalnız Fransanı deyil, kapitalizmin sürətli inkişaf dövrünü yaşayan İngiltərə və Almaniya kimi ölkələri də öz ağuşuna almışdı. 30-40cı illərdə bu ölkələrdə fəhlə hərəkatı, Bolqarıstan, Macarıstan, Polşa, Çexiyada isə milli-azadlıq mübarizəsi genişlənməkdə idi. Fransada XIII Lüdovikin nəvəsi, kral Lui-Filipin hakimiyyəti illəri (1830-1848) siyasi-iqtisadi sahələrdə olduğu kimi mədəniyyətin də əsil oyanışı və canlanması ilə xarakterizə olunur. Lakin Lui-Filipin hakimiyyətinin son illəri--40-cı illərin ortalarında başlayaraq bir neçə il davam edən iqtisadi tənəzzül iləyadda qalıb.1845—1846-cı illərin məhsul qıtlığının ardınca Fransada kapitalizmin meydana çıxdığı zamandan bəri müşahidə olunan ilk dərin böhran baş verdi. Əvvəlcə kənd təsərrüfatında başlayan tənəzzül iqtisadiyyatın bütün sahələrini bürümüş, sənayenin metallurgiya və dəmir yolu çəkilişi kimi sahələri başda olmaqla müxtəlif sahələrini iflic halına salmışdı. Müəssisələrin iflasa uğrayaraq bağlanması kütləvi işsizliyin artmasına, aclığa və səfalətə gətirib çıxardı, doğum faizi aşağı düşdü, bunun əksinə olaraq ölüm halları çoxaldı; ağır sosial vəziyyət öz növbəsində xalq kütlələrinin narazılığının artmasına gətirib çıxardı; xalq düşdüyü vəziyyətin günahkarlarını aramaqda idi. Ölkədə iqtisadi vəziyyətin ağırlaşması tək paytaxtda deyil, əyalətlərdə də iğtişaşların baş qaldırması və ictimai-siyasi ziddiyyətlərin kəskinləşməsi ilə nəticələndi. Müxalif qüvvələr islahatlar aparılmasını, fəhlə və kəndlilər isə iş tələb edirdilər. Acınacaqlı vəziyyətdə olan insanlar onları bu hala salan və böhrandan çıxmaqda acizlik göstərən

zəifləmiş hakimiyyətə qarşı qiyam qaldırdılar. Kral tərəfindən qoyulan qadağalar da xalq hərəkatının qarşısını ala bilmədi; qiyam böyüyərək inqilaba çevrildi. 1848-ci ilin fevralında baş vermiş inqilab nəticəsində Fransada Lui-Filipin monarxiyasına son qoyuldu. Fransa tarixində mövcud olmuş respublikalar içərisində ən qısa ömür sürən II Respublikanın (24 fevral 1848—2 dekabr 1851) elan olunması və demokratlardan və əksəriyyəti liberallardan ibarət olan müvəqqəti hökumətin yaradılması da 1848-ci ilin fevralına təsadüf edir. Həmin ilin payızında ölkədə yeni Konstitusiya qəbul olundu. Konstitusiyaya görə siyasi hakimiyyətə dörd ildən bir xalq tərəfindən seçilən prezident rəhbərlik etməli idi. Konstitusiya əhalinin kişi qisminə səsvermə hüququ verirdi; bununla yanaşı qanunda əmək hüququ ilə bağlı vətəndaşlara güzəştlər edildi, gündəlik iş saatı 1 saat azaldılaraq Parisdə 10, əyalətdə isə 11 saata endirildi, mətbuat azadlığı elan olundu, siyasi səbəblərlə ölüm hökmü verilməsi ləğv olundu. Fransanın müstəmləkəsi olan ölkələrdə qul əməyi ləğv olundu. 1848-ci ilin dekabrında Fransa tarixində ilk dəfə ümumxalq səsverməsi yolu ilə (seçkilərdə qadınların iştirak etmək hüququ yox idi) prezident seçkisi keçirildi. Gözləntilərin əksinə olaraq III Lui-Napoleon Bonapart seçkidən qalib çıxaraq Fransanın ilk prezidenti oldu. O, prezidentliyi dönəmində öz hakimiyyətinin mandatını uzatmaq məqsədilə Konstitusiyaya dəyişikliklər etməyə çalışdı, buna müvəffəq olmadıqda 1851-ci ilin dekabrında süni dövlət çevrilişi etməklə yenidən hakimiyyətə yiyələndi. Ölkəni respublikadan imperiyaya çevirən III Napoleon Bonapart öz idarəçiliyi dövründə avtoritar rejim yaratdı, şəxsi hakimiyyətini möhkəmləndirmək məqsədi ilə sərt tədbirlər gördü. Inqilab nəticəsində əldə edilmiş siyasi azadlıqlar uzun müddət davam etmədi, fəhlələlərin etiraz aksiyaları dramatik məcraya yönəldi, bir sıra hüquq və azadlıqlar məhdudlaşdırıldı**.** Ölkədə polisin rolu artırıldı, müxalifət aradan götürüldü, mətbuat üzərində senzura gücləndirildi. Vəziyyət o dərəcəyə çatmışdı ki, hətta vətəndaşlar arasında məktublaşmalara da gizli nəzarət edilirdi. Siyasi-ictimai vəziyyətin mürəkkəbliyinə baxmayaraq, Fransada iqtisadi inkişaf başlamışdı, əmək bazarında nəzərəçarpacaq canlanma baş verirdi. Bonapartın qurduğu avtoritar rejim 1860-cı ildən etibarən liberalizmə doğru təkamül prosesi keçirməkdə idi. III Lui-Napoleon Bonapartın hakimiyyəti illəri xarici siyasət sahəsində imperializm və müstəmləkəçilik meyllərinin artması ilə xarakterizə olunur. Expansionist siyasətinə sadiq olan Fransanın hakim dairələri öz sərhədlərindən kənarda hərbi müdaxiləsini davam etdirirdi. Lui-Napoleon Bonapart ölkəsinin hüdudlarını aşaraq uzaq ərazilərdə--Asiya, Afrika, Amerika qitələrində yerləşən çoxlu sayda ölkəni işğal etməklə müstəmləkə torpaqlarını genişləndirmiş, bunun sayəsində Fransanın xaricdə təsir dairəsini daha da artırmağa və imperiyanın mövqelərini

möhkəmləndirməyə nail olmuşdu. Bu cür expansionist siyasətin fonunda xarici ölkələrə həsr olunmuş və ya bu ölkələrlə bağlı ədəbi əsərlərin çoxalması müşahidə olunurdu ki, bu da hər şeydən əvvəl uzaq məmləkətlərə olan marağın artmasından xəbər verirdi. Qısa müddət davam etməsinə rəğmən II Respublika Fransanın dövlətçilik praktikasında mühüm yer tutur.

Həmin dövrün siyasi mənzərəsi ədəbi əsərlərlə yanaşı təsviri incəsənətdə, teatr tamaşalarında da öz əksini tapıb. Ölkədə cərəyan edən hadisələr, inqilabın məğlubiyyətə düçar olması ədəbiyyat sahəsinə də təsirsiz qalmamışdı; hakimiyyət tərəfindən amansızlıqla yatırılan inqilabın uğursuzluğu azadlıq, bərabərlik və qardaşlıq ideyalarına, utopik və romantik illüziyalara son qoydu. Bir-birinin ardınca baş verən inqilablar Avropanın bir sıra məmləkətlərində olduğu kimi Fransada da ictimai və mənəvi həyatın bütün sahələrinə təsir etdi; inqilabi dəyişikliklər insanların şüuru və psixologiyası ilə yanaşı, incəsənətin müxtəlif növlərində, ədəbiyyatda da öz əksini tapdı. Artıq sənət adamları cəmiyyətdə şahidi olduqları hadisələrin bədii sənətdə olduğu kimi əks etdirilməsinin gərəkliyini anlamağa başlamışdılar. Həyata keçirilən islahatlar elmin yüksəlişinə təkan verdi, ədəbiyyat və incəsənət yeni bir mərhələyə qədəm qoydu. Sənaye inqilabı, fəhlə sinfinin yaranması və fəhlə hərəkatı sənət adamlarına yeni ilham mənbələri verirdi. Elmin bütün sahələrindəki möhtəşəm tərəqqi nəticə etibarilə həmin dövrdə yaşayıb-yaradan elm və mədəniyyət xadimlərinin baxışlarında, yeni, mütərəqqi düşüncə tərzinin formalaşmasında mühüm rol oynadı və rasionalist düşüncənin meydana çıxmasına şərait yaratdı. Realist sənətkarlar əvvəlki dövrlərdəki sənət adamlarından fərqli olaraq, cəmiyyətin obyektiv qanunauyğunluqlarını, real inkişaf perspektivlərini daha aydın dərk edir, cəmiyyətin iqtisadi əsaslarına, ictimai proseslərin mahiyyətinə daha dərindən nüfuz edə bilirdilər. Elə bunun nəticəsində də onlar sələflərindən bir qədər də uzağa gedərək ictimai bərabərsizliyi və ədalətsizliyi, əmlak bərabərsizliyini, sinfi ziddiyyətləri görərək tənqid hədəfinə çevirməyə nail oldular və bu qənaətə gəldilər ki, cəmiyyətin həyatı ilahi qüvvələr tərəfindən və ya ayrı-ayrı yüksək çinli şəxsiyyətlərin ideyaları və iradələri ilə deyil, müxtəlif ictimai qüvvələrin toqquşmaları nəticəsində dəyişir və inkişaf edir.

Tarixi nöqteyi-nəzərdən sosial konfliktlərin şiddətlənməsi ilə xarakterizə olunan XIX yüzilliyin birinci yarısı ədəbiyyatın inkişafında mühüm dövrlərdən biri idi. 1830-cu ildə Viktor Hüqonun yazdığı "Ernani" pyesi ilə teatra yeni abu-hava gəlmiş, teatrın klassik, artıq köhnəlmiş şərtləri sıradan çıxmağa başlamış və müəyyən ictimai-siyasi məzmun daşıyan yeni bir ədəbi təmayülün—romantizmin əsası qoyulmuşdu."Həmin yüzilliyin 30-40-cı illərində ədəbiyyatda hələ ilk əlamətləri görünməkdə olan realizm bir neçə onillik boyu romantizmlə yanaşı addımlamaqda idi. Romantizm cərəyanı kimi realizm cərəyanı da fransız düşüncəsində, şüurunda dəyişikliklərə səbəb

olmuşdu. Naturalizmin sələfi olan realizm romantizmin reallığı şişirdərək və deformasiya edərək təqdim etməsinə qarşı çıxmaq zərurətindən doğmuşdu. Romantizm məktəbində yetişərək püxtələşən Balzak kimi yazarlar zaman keçdikcə öz əsərlərində reallığa daha yaxın təsvirlərə üstünlük verməyə başladılar. Sonralar bir sıra məsələlərə dair fərqli nöqteyi-nəzər nümayiş etdirsələr də, XIX əsrin 30-40-cı illərinin realist yazarları öz yaradıcılıq fəaliyyətlərinin ilk mərhələsində romantizm məktəbi ilə əlaqədə olublar. Bütün ədəbi yaradıcılıqları boyu onlar ən köklü realist əsərlərində belə romantik elementləri qoruyub saxlamışdılar;"romantiklər təbiətdə mövcud olan hər şeyin sənətin predmeti olması fikrini bəyan edirdilər. Bu məsələdə realistlər onlarla həmfikir idilər" [5,s.284]. Bununla belə onların hər biri bu vəziyyəti fərqli, özünəməxsus bir tərzdə başa düşürdü, bu iki hərəkatı təmsil edən sənətkarların baxışlarında bir çox problemlərə dair fikir ayrılıqları mövcud idi.

"Realizm termini....ilk dəfə 1826-cı ildə "Mercure de France"da artıq "gerçəkliyin ədəbiyyatını" ifadə etmək üçün yaranmışdı. Ədəbiyyatın cəmiyyətin əksi olması fikri XIX əsrin əvvəllərində yaranıb..." [3,s.217] Hələ 1930-cu ildə Stendal romanı "böyük bir küçə boyu gəzdirilən güzgüyə" bənzədirdi. Klassik realizm dövrü yaradıcılığı XIX əsrin birinci yarısına təsadüf edən, həmin dövrün görkəmli roman müəllifi olan fransız yazıçısı Anri Beyl Stendalın yaradıcılığı ilə başlayır. Realizmin təşəkkül yollarının proqramı məhz bu yazıçıya məxsusdur və onun başlıca prinsiplərinin əsası Stendal tərəfindən qoyulmuşdu. XIX əsrin 30-cu illərində Anri Stendalın yazdığı "Qırmızı və qara" əsəri tənqidi realizm janrında yazılmış ilk şedevr olsa da ictimaiyyət tərəfindən tam dəyərləndirilməmişdi: romantizmin "yumşaqlığına" adət etmiş oxucu birdən-birə sərt həqiqətləri ortaya qoyan bir əsəri yaxına buraxa bilmirdi. Stendal yazırdı ki, "gərək təxəyyül gerçəkliyin dəmir qanunlarını öyrənsin". Məhz təxəyyülün sayəsində ən yaxşı realist əsərlər öz zənginliyi və üslub müxtəlifliyi ilə seçilir. İctimai əqidəsinə görə iyirminci illərdə liberallığı ilə tanınan, otuzuncu il inqilabından sonra xalq kütlələrinin siyasi aktivliyindən ehtiyatlanaraq legitimizm mövqeyinə keçən fransız yazıçısı Onore de Balzak kəskin tənqidi sosial düşüncə tərzinə malik idi. Əsərləri mahiyyətcə realist olsa da, hələ bu terminin mövcud olmaması və romantik yazarlar sırasında mövqe tutması səbəbindən Balzak özünü romantik yazıçı hesab edirdi. "Bəşəri komediya"nın müqəddiməsində Balzak "Fransız cəmiyyətini tarixçi, özünü isə onun katibi" [4,s.492] adlandırırdı. Onun ölümündən bir neçə il sonra pərəstişkarı, fransız oçerk yazarı və romanlar müəllifi Flöri və Şanflöri təxəllüsləri ilə yazan Jül Fransua Feliks Üsson "Realizm" adlı kitab nəşr etdirdi. Şanflöri tərəfindən yazılan bu manifestdə ilk dəfə realizmin təməl prinsipləri nəzəri cəhətdən öz əksini tapmışdı. Sözügedən kitabın ardınca Şanflöri şagirdi, nasir və tənqidçi Lui Edmon Düranti ilə birlikdə "Realizm" adlı jurnal təsis etdi. Yazıçıların istəyi fransız ədəbiyyatının ən yaxşı

ənənələrini davam etdirən və "hər cür yalandan və kələkdən uzaq" nəsr əsərlərinin yaradılmsına nail olmaq idi.

Ədəbiyyat sahəsində işlənməzdən əvvəl realizm termini XIX əsrdə əksər tənqidçilər tərəfindən aşağılamaq məqsədilə rəssam Qustav Kurbenin yaradıcılığına şamil olunmuşdu. Tənqidçilər Qustav Kurbenin 1849-50-ci illərdə çəkdiyi "Ornanda dəfn" tablosunu dərin narazılıqla qarşılayaraq həyat həqiqətlərinin rəsm əsərində bütün çılpaqlığı ilə təsvir olunmasına öz etirazlarını bildirirdilər. Realist sənətkarın gerçək həyatı obyektiv surətdə təsvir etməsi, onun bütün eybəcəriklərini ifşa etməsi, dindən uzaqlaşması siyasi hakimiyyətdə bu cərəyana qarşı bir etimadsızlıq doğurmuşdu.

Bəs realizmin estetikası nədən ibarət idi? Ədəbiyyat və incəsənətdə realist estetikası həyatın güzgüsü olmaq anlamına gəlir."Realizm gerçəkliyin passiv əksi olmayıb, onun yaradıcı surətdə dəyişməsini əks etdirir"[5,s.132]. Tənqidi realizmin əsasında bütöv dünyagörüşü, gerçəkliyə müəyyən münasibət dayanır; bu ədəbi cərəyan hər şeydən əvvəl real dünya həqiqətlərinə əsaslanması və bədii uydurmaya verilən yerin azlığı ilə xarakterizə olunur. Realist əsərdə həyat hərtərəfli və bütün ziddiyyətləri ilə birlikdə işıqlandırılır. Realist yazıçı əsərlərində onu əhatə edən cəmiyyətdəki bütün müsbət və negativ hallardan yazırdı; müəllifin məqsədi cəmiyyəti bir tam halında, yaxşı və pis tərəfləri, xeyirxah və bəd əməlləri, təzadları ilə birlikdə təsvir etmək idi. "Realist əsərin süjetinin əsasında ictimai həyatın gedişində, şəxsiyyətin daxili aləminin inkişafında, şəxsiyyət və cəmiyyətin qarşılıqlı münasibətlərində meydana çıxan --toqquşma və ziddiyyətlər durur." [5, s.279]. Realist əsərin digər mühüm bir xüsusiyyəti ondan ibarətdir ki, hətta tamamlilə psixoloji və məişət süjetlərində belə onlar ictimai-tarixi məzmundan xali deyil və bəhs olunan dövrün gerçəkliyinin əsas, tipik tərəflərini əks etdirir. İctimai həyatı təsvir edən yazar yalnız bu tematikanın hüdudlarında qapanaraq qalmır, insanı canlı tarixlə və gerçəkliklə çoxtərəfli əlaqədə göstərir.Tənqidi realist qəhrəmanını əhatə edən gerçəkliyi diqqətlə öyrənərək onun hərəkətlərini səciyyələndirən motivləri tapır, tipik xarakterlərin təsviri zamanı real-məişət şəraitinin miqyasını saxlamağa çalışır, personajları müxtəlif həyat əlaqələrində və konkret-tarixi və məişət münasibətlərində təsvir edirdilər. Balzak "Bəşəri komediya"nın müqəddiməsində yazırdı ki, yalnız insanlar deyil, başlıca hadisələr də tipik obrazlarda toplanır. Ayrı-ayrı faktların və hadisələrin arxasında realist sənətkar müxtəlif ictimai qüvvələrin daha ümumi hərəkətini və qarşıdurmasını görür. Qəhrəmanın məxsus olduğu mühitin doğru-düzgün təsəvvürünün yaradılması naminə yazıçı cəmiyyət üzvlərinin fərdi xarakterləri ilə yanaşı onları doğuran tipik şəraiti və obyektiv qarşılıqlı ictimai münasibətləri də təsvir edir. Ayrılıqda götürülmüş hər bir fərdin psixolji aləmi, xarakteri məhz onun yaşadığı cəmiyyətdə formalaşdığı üçün

ictimai təfəkkür və bədii ədəbiyyat insanı yalnız psixoloji deyil, həm də ictimai tip kimi təqdim edirdi. Tipikləşdirmə adlandırılan bu cəhət yalnız realizmə xas keyfiyyətdir **və** onun fundamental prinsiplərindən biridir**.** F. Engelsə görə “realizm detalların həqiqiliyindən əlavə, tipik xarakterlərin doğru təcəssümüdür"**.** [6**,**s.35]. Realizm ədəbi məktəbinin ən ümdə və diqqəti cəlb edən cəhətlərindən biri məhz xarakterlərin zənginliyidir, qəhrəmanların xarakterini inkişafda göstərməsidir. Realizm öz mövzularını müasiri olduğu dünyanın, ictimai və tarixi mühitin müşahidəsindən götürür və elə şəxslərlə, faktlarla və situasiyalarla maraqlanır ki, əvvəllər sənət baxımından maraqlı hesab olunmurdu.

Bir ədəbi hərəkat olaraq realizmin tarixi xidməti ondan ibarətdir ki, o, insanın özünü bir fərd, bir şəxsiyyət kimi cəmiyyətdə yerini və rolunu dərk etməsinə imkan verdi.

## ƏDƏBİYYAT

1. Сучков Б. Исторические судьбы реализма. Москва, Советский писатель, 1977, стр. 280.
2. История зарубежной литературы XIX в. Москва , «Просвещение», 1972, стр.284.
3. Paul Aron, Denis Saint-Jaques, Alain Viala. Le dictionnaire du litteraire. Presses universitaires de France,2002, səh.217.
4. Dominique Rince, Bernard Lecherbonnier. Litterature. XIX s.Textes et documents. Paris, 1986. səh.492.
5. Петров С.М.Критический реализм. Москва , «Высщая школа», 1980, стр.132, 279.
6. Маркс К., Енгелс Ф. Сочинения, т.37, стр. 35.
7. Зотов И.А. Основной принцип реализма. Чувашское книжное издателство, 1976.
8. Поспелов Г.Н.Тэория литературы. Учебник для университетов. Москва , «Высщая школа», 1978.
9. Histoire de la litterature française, Hachette, 1974.
https://debalzac.wordpress.com/2011/06/11/lavant-propos-a-la-comedie-humaine/

**G.Haciyeva**

**The first conditions of the emergence of french realism**

**Summary**

This article briefly describes the socio-political situation in which the realism movement emerged and formed in France, and also talks about various factors that affected to the emergence of realistic way of thinking -

development of science, social and political revolutions, industrial revolution and so on. The article also examines the next stage of development of realism, gives brief information about the founders of the 19th century French realistic literature and the primary representatives of Western European literature. The article talks about realistic aesthetics, describes the essence of realism and its basic principles. The author tries to unravel the essence of realism by referring different representatives of the literary and philosophical ideas of Azerbaijan, Russian and world literature.

In this work comparisons and parallels between realism and various literary trends were discussed, as well as similarities and differences among them were uncovered by the author. The subjects, styles and images of the realistic literature are also analyzed in the study.

**Г.Гаджиева**

**Первые условия возникновения французского реализма**
**Резюме**

В этой статье кратко описывается общественно-политическая ситуация периода возникновения и сформирования реализма во Франции. Здесь также рассматриваются различные факторы, влияющие на возникновение реалисти-ческого мышления - развитие науки, общественно-политические, промышлен-ные революции и тд. В статье также речь идёт о путях дальнейшего развития реализма, приводятся краткие сведения об основоположниках французского реализма XIX века и ключевых представителях западноевропейского реализма. В статье рассказывается о реалистической эстетике, описывается сущность реализма, его основные принципы. Автор пытается разгадать суть реализма, приводя цитаты из разных представителей литературных и философских идей Азербайджана, России и т.д.

В работе рассматриваются сравнения и параллели между тенденциями реализма и различными литературными тенденциями, анализируются предметы, стили и образы реалистической работы.

**Rəyçi: Cavanşir Əliyev**
**Filologiya elmləri doktoru, professor**